# Xalqına, Vətəninə xidmətin Heydər Əliyev örnəyi

**Tarixin Azərbaycan xalqına bəxş etdiyi ən böyük şəxsiyyət – dünya şöhrətli siyasətçi və dövlət xadimi, fenomen insan, amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqa xidmət etməkdən ibarət olmuş ümummilli lider Heydər Əliyevin əziz və unudulmaz xatirəsi ötən illərdə xalqımızın qəlbində əbədiləşmişdir. Ulu öndərin ideya və əməlləri isə ölkəmizin gələcəyinə nur saçır.**



Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin tükənməz mənəvi irsi onun çoxəsrlik tariximizin ən mükəmməl və qüdrətli şəxsiyyəti olduğunu qəti olaraq sübut etmişdir. Suveren dövlətin əsaslarını yaratmaqla ulu öndər xalqımızın möhtəbər və təminatlı gələcəyinə böyük yol açmışdır. Azərbaycan yarım əsrdən artıqdır ki, sevimli liderinin amal və ideyalarına uyğun olaraq irəli gedir, çətinlik və maneələri inamla dəf edir, tarixə yazılan böyük nailiyyətlər əldə edir. Tərəqqipərvər insanlar və bütün Azərbaycan xalqı Heydər Əliyevin şəxsiyyətinə, onun ideyalarına, qoyduğu dəyərli irsə böyük hörmət və ehtiramla yanaşırlar.

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bilavasitə bağlıdır. Onun ölkəmizə bir qərinəlik müddətdə rəhbərliyi zamanı respublikamız əsrə bərabər inkişaf yolu keçmişdir. Ulu öndər öz ölkəsinə rəhbərlik etdiyi hər iki dövrdə var qüvvəsini və bacarığını Azərbaycanın yüksəlişinə həsr etmiş, respublikamızın hər yerində nəhəng quruculuq işlərinin təşəbbüskarı olmuşdur. Heydər Əliyev, eyni zamanda, dünya siyasətindəki mövqeyi, bəşəri tərəqqidəki rolu ilə türk dünyasının sevimlisi, türkdilli xalqların fəxr etdiyi öndər, bəşəri bir simadır.

Ölkəmiz müstəqilliyin ilk addımında naşı siyasi qüvvələrin məsuliyyətsizliyi və xəyanətkarlığı səbəbindən məhv olmaq təhlükəsi ilə üzləşəndə ümummilli lider öz xalqının harayına səs verərək onun xilaskarına çevrilmişdi. 1993-cü ilin böhranlı yayında – Vətənin dar günündə – ölkənin ictimai-siyasi həyatında baş verən çaxnaşma, hakimiyyət uğrunda gedən mübarizə, cəbhədəki acınacaqlı məğlubiyyətlər, vətəndaş qarşıdurması zamanı xalqımız çıxış yolunu öz böyük oğlunu hakimiyyətə dəvət etməkdə görmüşdü.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi və uzaqgörənliyi sayəsində tezliklə hərbi-siyasi böhran sovuşdurulmuşdu. Böyük siyasət qrossmeysterinin həyata keçirdiyi təcili-təxirəsalınmaz tədbirlərlə Azərbaycanda siyasi sabitlik yaradılmış, milli birlik əldə edilmiş, Silahlı Qüvvələrin döyüş qüdrəti artırılmış, qara yaraya çevrilmiş erməni işğalına son qoyulmuş, atəşkəs elan olunmuşdur. Qısa bir zamanda Heydər Əliyevin bilavasitə rəhbərliyi altında respublikamızda ictimai-siyasi sabitlik, iqtisadi dirçəliş əldə olunmuş, siyasi aləmdə dövlətimizin beynəlxalq nüfuzu möhkəmlənmiş və müstəqilliyimiz dönməz xarakter almışdı.

Sonrakı dövrdə mahir dövlət qurucusu Heydər Əliyevin rəhbərliyi ilə müstəqil respublikamızın ilk Konstitusiyası qəbul edilmiş, parlamentə seçkilər keçirilmişdi. Şərqdə ilk dəfə olaraq ölüm hökmü ləğv edilmiş, hüquqi və sivil dövlət quruculuğu prosesi uğurla davam etdirilmişdi. İqtisadi islahatların həyata keçirilməsinə başlanılmış, “Əsrin müqaviləsi” adını almış neft müqaviləsi imzalanmış, dünya dövlətləri ilə iqtisadi və siyasi əlaqələrimiz genişlənmişdi. Bütün bunlar məhz ulu öndərin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində mümkün olmuşdu.

Ümummilli lider Heydər Əliyev tükənməz enerjisini nəinki öz xalqının, dövlətinin inkişafına, bütövlükdə, dünya xalqlarının iqtisadi, mədəni səviyyəsinin yüksəlməsinə, mehriban münasibətlərin dərin kök salmasına sərf edirdi. Bu gün biz fəxrlə deyirik ki, o çətin tarixi sınaq günlərində Azərbaycanı dünya dövlətləri arasında irəli çıxaran, xalqı məhv olmaqdan xilas edən, onun gələcək inkişafına möhkəm zəmin yaradan ulu öndər Heydər Əliyev olmuşdur.

Dünya miqyaslı siyasətçi, bənzərsiz dövlət xadimi keçmiş SSRİ-də olduğu kimi, bu məkanda yaranmış Müstəqil Dövlətlər Birliyi çərçivəsində də bu liderlərin, yüksək səlahiyyət sahiblərinin səmərəli idarəçili öyrəndikləri siyasətçi idi. MDB dövlət başçılarının sammitlərində çıxış edən Azərbaycan liderinin hər bir təklifi böyük maraq və ehtiramla qarşılanırdı. O, bütün dünya siyasətçiləri arasında müdrik və uzaqgörən şəxsiyyət ustası kimi böyük nüfuzlu və hörmət sahibi idi.

Məhz Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilən tarixi Böyük ipək yolu dünyamızın Şərqi ilə Qərbini birləşdirərək bütün dövlətlərin inkişafına mühüm təkan vermişdir. Ümummilli lider Heydər Əliyev BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GÜAM, MBD və başqa beynəlxalq təşkilatların toplantılarında daim qlobal bəşəri problemlərə öz orijinal baxışı ilə fərqlənirdi. Bütün bunlarla ulu öndər dünyada Azərbaycanın rəmzinə çevrilmişdi.

Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə ikinci dəfə – son dərəcə çətin və xalqın müqəddəratının həll olunduğu bir zamanda ölkəyə rəhbərliyi öz üzərinə götürəndə dağıdılmış təsərrüfatın bərpa edilməsi üçün qarşıda hansı çətinliklərin durduğunu dərindən bilərək, bu ağır mübarizəyə hazır idi. Bu dövrdə birinci növbədə bir neçə vacib vəzifələri həll etmək qarşıda durdu. Belə ki, qanlı müharibəni, xarici təcavüzü dayandırmaq, inflyasiyanın qarşısını almaq, iqtisadiyyatı sabitləşdirmək, dövlətin beynəlxalq aləmdə tanınmasına nail olmaq, ölkə haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, Qarabağ probleminin dinc yollarla həlli prosesinə başlamaq və s. məsələləri həll etmək lazım gəlirdi.

Xalqın yüksək etimadı ilə müstəqil dövlətin Prezidenti seçilən Heydər Əliyevin gördüyü ilk tədbirlər iqtisadiyyatın bərpası, əmin-amanlığın yaranması, ictimai-siyasi sabitlik ilə bağlı idi. Həmin dövr iqtisadiyyatın dağılması, istehsal prosesinin dayanması və durğunluq, istehsal əlaqələrinin pozulması ilə xarakterizə olunurdu. Yaranmış mənzərənin mürəkkəbliyini bütün dərinliklərinə qədər dərk edən ulu öndər Heydər Əliyev çətin də olsa, çıxış yollarını uzaqgörənliklə müəyyən etdi.

Azərbaycanda 1993-cü ilin ikinci yarısından etibarən ümummilli liderimiz Heydər Əliyev tərəfindən aparılan məqsədyönlü daxili və xarici siyasət nəticəsində 1995-ci ildə ölkədə yaranmış ictimai-siyasi sabitlik sosial-iqtisadi problemlərin həllini, o cümlədən əhalinin həyat səviyyəsinin yaxşılaşması sahəsində görülən işləri ön plana çəkmişdir. Ardıcıl olaraq aparılan islahatlar qısa müddət ərzində öz bəhrəsini verməyə başlamış və iqtisadiyyatın ayrı-ayrı sahəsində ciddi irəliləyiş əldə edilmişdir. Görülən məqsədyönlü və uzaq perspektivlərə tuşlanmış tədbirlər nəticəsində geriləmənin qarşısı birdəfəlik alınmışdır.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dövlət müstəqilliyimizin təmin edilməsi və bazar münasibətlərinin inkişaf etdirilməsi sahəsində aparılan iqtisadi islahatlar Azərbaycanın iqtisadiyyatının inkişafı və dünya təsərrüfat sisteminə daha sıx inteqrasiya olunması üçün əlverişli şərait yaratmışdır. Məhz belə bir şəraitdə milli iqtisadiyyatın formalaşması və ölkənin dünya bazarında yerinin müəyyən edilməsi, onun mövqeyinin perspektiv dövr üçün möhkəmləndirilməsi dövlətin siyasi-iqtisadi fəaliyyətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Azərbaycan iqtisadi və siyasəti müstəqillik əldə etdikdən sonra dünya dövlətləri ilə sərbəst əməkdaşlıq etmək imkanı əldə etmişdir. Bu müstəqilliyin əldə edilməsində isə Heydər Əliyevin xidmətləri əvəzsizdir. Ümummilli lider Heydər Əliyev göstərirdi: “İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir”.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalının və ixracının stimullaşdırılması, daxili tələbatın yerli istehsal hesabına təmin edilməsi istiqamətində kompleks və ardıcıl işlər görülmüşdür. Bu baxımdan, iqtisadiyyatın neftdən asılılığının azaldılması, qeyri-neft sektorunun davamlı inkişafı iqtisadi siyasətin mərkəzində duran əsas hədəflərdəndir.

Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü, düşünülmüş siyasət, dərin islahatlar nəticəsində uzun illər ərzində yaradılmış iqtisadi və hərbi potensial Ordumuzun düşmən üzərində parlaq və qəti qələbəsini şərtləndirdi. 2020-ci ilin payızında aparılan Vətən müharibəsində xalqımızın tarixi qələbəsi ilə ölkə ərazisinin 20 faizinin uzun illər işğal altında qalmasına son qoyuldu. Prezident İlham Əliyev bu zəfərlə ulu öndər Heydər Əliyevin Ata vəsiyyətini şərəflə yerinə yetirdi. 2 ildən artıqdır ki, işğaldan azad edilmiş Qarabağ ərazisində böyük quruculuq işləri həyata keçirilir.

Möhtərəm Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva vaxtaşırı Qarabağa və Şərqi Zəngəzura səfərlər edir, tikinti-bərpa meydanlarında olur, yeni açılış mərasimlərində iştirak edirlər. Bütün bunlar xalqımızda yüksək quruculuq əhvalı və uğurlarımızla bağlı qürur hissi yaradır. Artıq Qarabağa Böyük Qayıdış başlayıb. Quruculuq işləri uğurla davam etdirilir.

***Arif ŞƏKƏRƏLİYEV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, Əməkdar elm xadimi***